

# Müzəffər xalqın rəşadətli ordusu

***Milli Ordu quruculuğu Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynayır. Ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdışı bütün sahələrdə, o cümlədən ordu quruculuğu istiqamətində aparılan siyasətin davam etdirilməsinə şərait yaratdı. Görkəmli dövlət xadimi Heydər Əliyevin ordu quruculuğu sahəsində gördüyü işlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Mərkəzləşmiş maddi-texniki təminat işində uğurlu addımlar atıldı, müxtəlif qoşun növlərinin, ayrı-ayrı hərbi hissələrin təminatı həyata keçirilməklə formalaşması başa çatdırıldı, fərarilik hallarının qarşısı alındı, orduya çağırış işi təkmilləşdirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi. Bütün bu addımların nəticəsidir ki, 44 günlük İkinci Qarabağ müharibəsində rəşadətli ordumuz düşməni darmadağın etməklə 30 illik işğala son qoydu.***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyət və ardıcıllıqla davam etdirdiyi strategiyaya əsaslanan ordu quruculuğu prosesi xalqımızın zəngin və şərəfli ənənələrini qorumaqla həyata keçirilməkdədir. Bu gün öz gücü və qüdrəti ilə seçilən, qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirmək imkanına malik olan Azərbaycan Ordusu dövlət müstəqilliyinin bərpasından ötən illər ərzində müasir inkişaf səviyyəsinə gəlib çatdı. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan Azərbaycan Ordusu bu gün NATO standartları səviyyəsində formalaşmışdır. Bu gün xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılmışdır. Ölkə rəhbərliyinin bu sahəyə olan yüksək diqqət və qayğısının nəticəsidir ki, dünyada orduların reytinqlərini tərtib edən sanballı qurumlar bu gün Azərbaycan Ordusunun dünyanın güclü orduları sırasında olduğunu təsdiqləyirlər.

Xüsusilə qeyd olunmalıdır ki, müasir ordu quruculuğunu xarakterizə edən, Milli Ordumuzun möhkəmlənməsinə geniş imkanlar yaradan əsas amil dinamik iqtisadi inkişaf və ölkəmizin iqtisadi qüdrətinin artmasıdır. İqtisadi inkişaf ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına və Azərbaycanda hərbi-sənaye potensialının gücləndirilməsinə geniş imkanlar yaradır. Hər bir dövlət onda güclü olur ki, onun qüdrətli iqtisadiyyatı və güclü ordusu var. Azərbaycanın güclü orduya malik olması 44 günlük Vətən müharibəsində bir daha nümayiş etdirildi. Gənclərimizin bu gün dövlət başçısı İlham Əliyevin sərəncamı ilə hərbi xidmətə böyük ruh yüksəkliyi ilə getmələri də onlarda Vətən sevgisinin böyüklüyünün təsdiqidir. Hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı ordu quruculuğu və bu sahədə perspektivlər barədə danışan Prezident İlham Əliyev demişdi: "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".

Əlbəttə, qələbənin qazanılmasında ordunun döyüş qabiliyyətinin artırılması başlıca şərtdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, istər 2016-cı ilin, istərsə də 2018-ci illərin hərbi əməliyyatları göstərdi ki, ordumuz qarşıya qoyulan istənilən vəzifəni yerinə yetirmək əzmindədir. Belə də oldu, 2020-ci il 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilməsindən sonra Silahlı Qüvvələrimizin qarşısında dayanmış 30 illik tapşırıq yerinə yetirildi. Təsadüfi deyil ki, Milli Ordunun döyüş qabiliyyəti və peşəkarlığı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı dünyanın qabaqcıl orduları ilə müqayisə olunur. Güclü maddi-texniki təminat və xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırır. Bu gün hərbi potensialın artırılması, əsgər və zabitlərin xidmət şəraitlərinin yüksək səviyyədə təmin edilməsi istiqamətində dövlətimiz tərəfindən mühüm addımlar atılmaqdadır. Son bir neçə il ərzində Azərbaycanda müasir və çox güclü hərbi-sənaye kompleksi yaradılmışdır. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilmişdir və bunun nəticəsi olaraq Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik odumuz var.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Ordusu Ermənistanın təxribatlarına cavab olaraq həyata keçirdiyi əks-hücum əməliyyatı ilə dünya hərb tarixində yeni səhifə yazmışdır. Dünyanın müxtəlif ölkələrini təmsil edən hərbçilərin, bu sahə üzrə mütəxəssislərin fikrincə, Azərbaycan XXI əsrdə müharibə aparmağın parlaq nümunəsini ortaya qoymuşdur. Təsadüfi deyil ki, Azərbaycan Ordusunun döyüş taktikasını dünyanın ən güclü ordularından birinə sahib olan ABŞ da etiraf edir. ABŞ ordusunun Quru Qoşunlarının Baş Qərargah rəisi, ordu generalı Ceyms Mak-Konvill mətbuata verdiyi açıqlamada bildirmişdi ki, Azərbaycanın Qarabağda apardığı müharibə öyrənilməli və gələcək doktrinaların, taktikaların dəyişdirilməsi baxımından əhəmiyyət daşıyır.

ABŞ ordusunun rəsmisi açıq şəkildə vurğulamışdır ki, azərbaycanlıların taktikası dünyanın ordu təmsilçilərini tankların döyüşdə asan hədəf olması, ləng hərəkət etməsi və ümumiyyətlə, müasir savaşın çox bahalı vasitəsi olması ilə bağlı düşünməyə vadar edir. Bununla belə, Azərbaycan Ordusu tam hərbi qaydalara uyğun olaraq müharibə aparır.

İkinci Qarabağ müharibəsindən sonra bütün dünya yeni Azərbaycanı kəşf etdi. Məlum oldu ki, onun yaxşı təlim keçmiş, müasir silah növləri ilə silahlanmış və ən əsası onlardan istifadə qaydalarını bilən ordusu var. Ekspertlərin sözlərinə görə, indi Azərbaycan ordusu istənilən kənar təhlükələrə hazırdır və təcavüzkarlara layiqli cavab vermək gücündədir. 44 günlük müharibə nəinki Azərbaycan Silahlı Qüvvələrinin möhkəmliyini, ilk növbədə, bu müharibə, əslində, vətənpərvər və azadlıqsevər əsgərlərin ruhunun gücünü göstərdi. Bu, böyük bir motivasiya idi. Razılaşaq ki, yaxşı təlim və silahlanma olsa da, motivasiya olmasa, müharibəni udmaq mümkün deyil. Müharibədə qalib gəlmək müharibə üsullarını daha da təkmilləşdirmək üçün böyük bir stimuldur. Bununla yanaşı, qeyd edək ki, Azərbaycan Ordusu pilotsuz uçan aparatlardan indiyədək dünyada heç kimin nümayiş etdirmədiyi səviyyədə istifadə etmək bacarığını nümayiş etdirdi. Bununla da bir çox ölkələrin ordularının döyüş əməliyyatları strategiyasında dəyişiklik etdi. Mütəxəssislər bildirirlər ki, hazırda Cənubi Qafqazda Azərbaycanın Ordusu, həqiqətən də, ən güclüdür.



Bir sözlə, Azərbaycan XXI əsrin tələbləri səviyyəsində döyüşməyə qadir olan müasir orduya malikdir. Azərbaycan son otuz il ərzində ən yaxşı silah-sursat nümunələri almış və aparıcı hərbi mütəxəssislərin rəhbərliyi altında öz hərbi qulluqçularını hazırlamışdır. Bütün bunlar müharibədə uğurun və Azərbaycanın milli prioritetlərini ciddi şəkildə bəyan edən ölkə kimi tanınmasının rəhni oldu. Ötən il noyabrın 11-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə bildirmişdi ki, biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik: "Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Bu tarixi missiyanı siz icra etmisiniz – Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib".

Müharibədəki ağır məğlubiyyət Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etdi. Bununla da Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu. Bu zəfərdən sonra xalq-dövlət-ordu birliyi yüksək səviyyəyə qalxdı. Ölkə başçısının dediyi kimi, bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl guşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir.

*"Xalq qəzeti"*